***Ölüm Cəzasına Qarşı Avropa və Ümumdünya Günü, 10 oktyabr 2023-ci il: Avropa Şurası adından Baş Katibin və Avropa İttifaqı adından Ali Nümayəndənin Birgə Bəyanatı***

*Ölüm Cəzasına Qarşı Avropa və Ümumdünya Günü münasibəti ilə Avropa İttifaqı (Aİ) və Avropa Şurası bütün hallarda və bütün şəraitlərdə ölüm hökmünün, o cümlədən ölüm hökmünün yenidən tətbiqinə birmənalı surətdə qarşı olduqlarını qətiyyətlə təkrar bəyan edir.*

*Ölüm cəzası qeyri-insani və ləyaqəti alçaldan cəzadır və insan ləyaqətinin son dərəcə inkarını təmsil edir. Ölüm hökmü cinayətin qarşısını ala bilmir və məhkəmə səhvlərini geri dönməz edir.*

*Dünya ölüm cəzasından uzaqlaşmağa davam edir, dünya ölkələrinin üçdə ikisindən çoxu ölüm hökmünü qanuni və ya praktiki olaraq ləğv etmişdir. Ölüm cəzasının ləğvi lehinə qlobal hərəkata keçən il qoşulan Zambiya və Qananı təbrik edirik. Biz, həmçinin BMT Baş Assambleyasının ölüm cəzasına qlobal moratoriumuna və sonradan ölüm cəzasının ləğv edilməsinə çağıran qətnaməsinin lehinə rekord 125 səsin əldə olunmasını alqışlayırıq. Biz hələ də ölüm hökmlərini icra edən dövlətləri onların ləğvi istiqamətində ilk addım kimi moratorium tətbiq etməyə çağırırıq.*

*Bu il Avropa İnsan Hüquqları Konvensiyasının (AİHM) ölüm hökmünün bütün hallarda ləğv edilməsinə dair 13 saylı Protokolunun qüvvəyə minməsinin iyirmi ili tamam olur. Bu günə qədər, Avropa Şurasının 44 üzvü onu ratifikasiya etmişdir. Bunu təqdirəlayiq hesab edərək, 13 saylı Protokolun Ermənistan Milli Assambleyası tərəfindən ratifikasiya edilməsini və Azərbaycan tərəfindən imzalanmasına görə alqışlayırıq. Biz hər iki üzv ölkəni ratifikasiya prosesini mümkün qədər tez başa çatdırmağa çağırırıq.*

*Belarus Avropada ölüm hökmünün hələ də tətbiq olunduğu yeganə ölkədir. Aİ və Avropa Şurası, Belarusda dövlət və hərbi qulluqçuların vətənə xəyanət təqsiri ilə ölüm hökmünün bir il ərzində artıq ikinci dəfə uzadılmasından təəssüflənirlər. Ötən il Çində edam hökmləri və edamların minlərlə olduğu təxmin edilir, baxmayaraq ki, rəqəmlər dövlət sirri olaraq saxlanılır. Dünyanın digər bölgələrində İran və Səudiyyə Ərəbistanı kimi ölkələrdə edamlar artıb. Bu ölkələr, eləcə də Sinqapur kimi digər ölkələr narkotiklərlə bağlı, hətta vətəndaşlar sosial şəbəkələrdə və ya küçələrdə öz fikirlərini bildirdiyi hallarda ölüm hökmündən istifadə etməklə beynəlxalq insan hüquqları qanunlarına məhəl qoymurlar. Bu qeyri-insani cəzadan imtina edilməlidir. Biz həmçinin təəssüf edirik ki, ABŞ-da 2022 və 2023-cü illərdə edamlar davam etmişdir.*

*Biz ölüm cəzasını istismar edən bütün dövlətləri ləğvetmə məsələsi ilə bağlı açıq və demokratik müzakirələri təşviq etməyə çağırırıq. Bunu nəzərə alaraq, dövlətlər şəffaflığı və ölüm cəzası prosedurları, siyasətləri və praktikaları haqqında dəqiq məlumatlara çıxışı artırmalıdır. Ölüm cəzasının bərpası ilə bağlı narrativlərin vaxtaşırı qaytarılması vətəndaş cəmiyyəti ilə daha çox əlaqəyə və gənclər arasında ölüm cəzasının ləğvi üçün təbliğatın artmasına təkan verməlidir. Ölüm cəzasını ləğv edən bütün ölkələrin hökumətləri ölüm cəzasının onların daxili cəza sistemlərinə qayıdışının olmayacağına dair aydın siqnal göndərməlidir.*

*Aİ və Avropa Şurası küfr, mürtədlik və ya konsensual eynicinsli münasibətlərə görə cəza da daxil olmaqla, ölüm cəzasına qarşı təbliğatı davam edəcək.*

*Vətəndaş cəmiyyəti ölüm cəzasına qarşı qlobal mübarizənin önündə qalmaqda davam edir. Aİ və Avropa Şurası qanun və praktikada bu məqsədə nail olmaq üçün tərəfdaşlıqlarını gücləndirməyə davam edəcəklər. Bu mühüm gündə insan ləyaqəti, insan hüquqları və ölüm hökmünün birdəfəlik aradan qaldırılması üçün yorulmadan çalışmağa davam edən bütün hüquqşünasları, hüquq müdafiəçilərini, alimləri, siyasətçiləri və digər şəxsləri salamlayırıq.*